# Əhalinin güzəranının daha da yaxşılaşdırılması dövlət siyasətində prioritet olaraq qalır



***Vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi hər bir dövlətin sosial siyasətinin əsas məqsədidir. Bu, əhalinin məşğulluğunun, tibbi xidmətin yüksək səviyyədə təmin edilməsi, pensiyaçıların, çoxuşaqlı ailələrin, əlillərin hüquqlarının müdafiəsi yolu ilə həyata keçirilir. Azərbaycanda əhalinin sosial müdafiəsi, həyat səviyyəsinin inkişaf etmiş ölkələrin standartlarına çatdırılması məsələləri dövlət siyasətinin əsas prioritetləri sırasındadır. Prezident İlham Əliyevin bu günlərdə imzaladığı yeni fərman və sərəncamlar ardıcıl, genişmiqyaslı sosial islahatların növbəti mərhələsinin təməlini qoymaqla yanaşı, həm də dövlətin hər zaman vətəndaşının yanında olduğunu təsdiqlədi. Gələn ilin dövlət büdcəsi bir daha göstərir ki, Azərbaycan uğurlu sosial siyasətini davam etdirməkdə israrlıdır.***

Sosial siyasət hər bir dövlətin ümumi siyasətinin tərkib hissəsidir, ölkənin istənilən iqtisadi nailiyyətinin təminatıdır. Yekunlaşmaqda olan ildə Prezident İlham Əliyevin növbəti dəfə sosial xarakterli fərman və sərəncamlar imzalaması bunun əyani sübutdur. Belə ki, 2021-ci il 17 dekabr tarixdə imzalanmış sərəncama əsasən minimum aylıq əməkhaqqının məbləği artırılaraq 250 manatdan 300 manata çatdırıldı. Bu,800 min işçinin maaşının artması deməkdir. Xüsusilə qeyd etmək lazımdır ki, maaş artımı 1 milyona yaxın insana şamil olunacaq. Yeni ildən həyata keçiriləcək artımlara görə əlavə olaraq 1,5 milyard manat vəsait ayrılacaq.

Ölkə başçısının digər sərəncamı ilə dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin də əməkhaqları 20 faiz artırılır. İmzalanan bu sərəncamlar əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin artırılması istiqamətində növbəti mühüm addımların atılmasını təmin edəcək. Qeyd edək ki, sosial islahatlar dövlət başçısının "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" 2021-ci il 16 oktyabr tarixli sərəncamına əsasən reallaşdırılır.

Gələn ilin dövlət büdcəsi bir daha təsdiqləyir ki, dövlət uğurlu sosial siyasətini davam etdirəcək. Belə ki, 2022-ci il dövlət büdcəsinin gəlirləri 26 816 000 000 manat, xərcləri 29 879 000 000 manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 25 868 444 000 manat, yerli gəlirləri 947 556 000 manat, mərkəzləşdirilmiş xərcləri 28 893 988 000 manat, yerli xərcləri 985 012 000 manat) məbləğində təsdiq edilir. Növbəti ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərcləri üçün 3 milyard 565,8 milyon manat vəsait proqnozlaşdırılır. Bu, "2022-ci il dövlət büdcəsi zərfi haqqında" Qanunda öz əksini tapmışdır. Ayrılan vəsait cari illə müqayisədə 127 milyon manat və ya 3,4 faiz az, 2020-ci ilin icra göstəriciləri ilə müqayisədə 453,2 milyon manat və ya 14,6 faiz çoxdur.

2022-ci ilin dövlət büdcəsinin əsas xərclərini, təxminən 40 faizini sosialyönümlü xərclər təşkil edəcək. Həmin xərclərin əsas hissəsi sosial təminat və sosial müdafiə xərclərinə yönəldiləcək. Bundan başqa, gələn il minimum aylıq əməkhaqqının məbləğinin artırılması, o cümlədən büdcədən maliyyələşən təşkilatlarda əməyin ödənilməsi sisteminin təkmilləşdirilməsi nəzərdə tutulur. Eyni zamanda, əmək pensiyalarının minimum məbləğinin, ünvanlı dövlət sosial yardımın təyin edilməsi məqsədilə ehtiyac meyarı həddinin, bir sıra sosial müavinətlərin, doktorantların və tələbələrin təqaüdlərinin məbləğinin artırılması nəzərdə tutulur ki, bu tədbirlərin maliyyələşdirilməsi 2022-ci ilin dövlət büdcəsinin sosial xərclərində xüsusi yer tutacaq. Bir sözlə, büdcədən sosial məqsədlər üzrə bütün istiqamətlərdə artımın təmin edilməsi üçün əlavə maliyyə mənbələri nəzərə alınmışdır və bu, bir daha nümayiş etdirir ki, Azərbaycan dövlətinin sosial siyasəti vətəndaşlarımızın sosial rifahının daim gücləndirilməsinə yönəlmişdir.

Prezident İlham Əliyev hələ 2003-cü ildə keçirilən andiçmə mərasimində sosial-iqtisadi göstəricilərin yalnız rəqəmlərdə deyil, insanların gündəlik həyatında öz əksini tapmasının vacibliyini bildirmişdi: "Azərbaycanda digər sosial məsələlər də öz həllini tapır... Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Ölkənin bütün imkanları buna xidmət edəcəkdir".

2018-ci ildə keçirilən andiçmə mərasimində də Prezident İlham Əliyev sosial siyasətin uğurla davam etdiriləcəyini açıqlamışdı: "Ümumiyyətlə, deyə bilərəm ki, son 15 il ərzində biz sosial məsələlərin həllinə çox böyük diqqət göstərmişik. Bunu rəqəmlər də təsdiqləyir...Yəni, sosial siyasət daim diqqət mərkəzindədir. Dəfələrlə bu məsələ ilə bağlı fikrimi bildirmişəm, bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır". Ölkə başçısı hər zaman qeyd edir ki, güclü iqtisadiyyat və güclü sosial siyasət dövlət kursunun prioritet istiqamətləridir. Sosial sahədə əldə olunan uğurlar, insanların rifah halının ildən-ilə yüksəlməsi dövlətimizin başçısının uzaqgörən siyasətinin əyani təsdiqidir.

Sosial siyasətin həyata keçirilməsi özünü müxtəlif istiqamətlərdə - kənd məktəblərinin, səhiyyə ocaqlarının tikintisində, qazlaşdırma layihələrinin icrasında, su təchizatı və kanalizasiya xidmətinin yaxşılaşdırılmasında, sosial ödənişlərin, maaş və pensiyaların artırılmasında, kompensasiyaların verilməsində göstərir.

Azərbaycan dünyanın o nadir ölkələrindəndir ki, hətta böhranlı illərdə də sosial proqramları həyata keçirir. Xüsusilə qeyd etmək lazımdır ki, uğurlu sosial siyasət sayəsində yoxsulluğun səviyyəsi azaldı, maaşlar və pensiyalar dəfələrlə artırıldı. Respublikanın iqtisadi potensialının artması ilə sosial müdafiənin gücləndirilməsi üçün münbit şərait yarandı. Xatırlatmaq yerinə düşər ki, 2018-ci ilin əvvəli ilə müqayisədə Azərbaycanda orta aylıq nominal əməkhaqqı məbləği 39 faiz, əmək pensiyalarının orta məbləği 60 faiz, sosial müavinətlərin orta məbləği 2 dəfə, Prezidentin təqaüdlərinin orta məbləği 2,2 dəfə artmışdır. Son üç ildə ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti 2018-ci ildəki 26,5 faizdən 2020-ci ildə 38 faizə yüksəlmişdir. Bunun nəticəsidir ki, Azərbaycanda pensiya təminatı və digər sosial sahələrdə Müstəqil Dövlətlər Birliyi ölkələri arasında ilk pillələri tutur.

Xüsusilə qeyd etmək yerinə düşər ki, Prezident İlham Əliyevin son sərəncam və fərmanları əmək bazarına müsbət təsir göstərəcək. Belə ki, minimum əməkhaqqı artımı həm də işçi qüvvəsinin rəqabət qabiliyyətinin, əmək məhsuldarlığının artmasını, əməyin leqallaşdırılmasını da stimullaşdırır. Qeyd etmək yerinə düşər ki, Azərbaycanda son 4 ildə sosial ödənişlərdə baş verən ciddi artımların mühüm bir istiqaməti əməkhaqları ilə bağlıdır. Hazırkı artımı da nəzərə alsaq minimum əməkhaqqında artım bu dövrdə 2,3 dəfə təşkil etmişdir.

Məlumdur ki, əmək bazarı bazar münasibətlərinin ən mürəkkəb tərkib hissəsidir, o digər bazarlardan fərqli olaraq insan amili ilə daha çox bağlıdır. Buna görə də, əmək bazarı digər bazarlardan daha çox sosial-iqtisadi prosesləri əks etdirməsilə fərqlənir. Sosialyönümlü iqtisadi siyasətin əsas mahiyyəti də odur ki, qəbul edilən qərarlar yeni iş yerlərinin açılması ilə yanaşı, əmək bazarına müsbət təsir göstərsin. Son illərdə Azərbaycanda çox ciddi və genişmiqyaslı sosial-iqtisadi islahatlar aparılır və bütün bunlar da vətəndaşlarımızın yaşayış səviyyəsinin daha da yaxşılaşmasına şərait yaradır.

Bu gün yoxsulluğa qarşı mübarizədə Azərbaycan böyük uğurlara imza atması ilə dünyanın diqqətini çəkir. Xüsusilə də işsizliklə bağlı böyük işlər görülür. 2021-ci il fevralın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 5253,4 min nəfərdir, onlardan 4877,3 min nəfərini məşğul əhali təşkil edir. Buna görə də yeni iş yerlərinin yaradılması ilə bağlı daha çevik və səmərəli siyasət aparmaqla Azərbaycan hökuməti əhalinin məşğulluq səviyyətini daim yüksəldir. Müstəqillik tariximizin ən irihəcmli büdcəsi kimi dəyərləndirilən 2022-ci ilin dövət büdcəsinin sosialyönümlü siyasətin uğurla aparılmasına güclü zəmin yaradır.

Azərbaycanın ictimai-siyasi həyatında böyük rol oynayan təhlükəsizlik və güc nazirliklərinin əməkdaşlarının da sosial vəziyyətinin daha da yaxşılaşdırılması məsələsi ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Belə ki, Prezident İlham Əliyevin 23 dekabr 2021-ci il tarixində imzaladığı "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında" fərmanı hərbi qulluqçuların və dövlət qulluqçusu olmayan mülki işçilərin sosial müdafiəsini gücləndirəcək. Bununla yanaşı, Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında da sərəncam imzalamışdır. Fərmana əsasən, Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşları orta hesabla 20 faizi həcmində artacaq.

Prezident İlham Əliyev Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması barədə də fərman imzalamışdır. Fərmana əsasən, Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə olunacaq, Xidmətin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları isə orta hesabla 20 faiz artırılacaq. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin və Tibb Baş İdarəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması da baş verəcək. Dövlət başçısının fərmanına əsasən, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin və Tibb Baş İdarəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə ediləcək. Həmin qurumların dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları isə orta hesabla 20 faiz artırılacaq.

Prezident İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının, həmçinin Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının sosial vəziyyətinin gücləndirilməsinə yönəlmiş fərman imzalamışdır. Fərman Fövqəladə Hallar Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə olunması, nazirliyin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə edilməsini nəzərdə tutur. Digər fərmana əsasən, Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə olunacaq. Komitənin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları da orta hesabla 20 faiz artırılacaq.

Göründüyü kimi, sosial siyasətin Azərbaycan modeli ən sivil dünya standartlarına və dəyərlərinə əsaslanan uzunmüddətli inkişaf və təkmilləşmə modelidir. Dövlət proqramları çərçivəsində həyata keçirilən və nəzərdə tutulan tədbirlər əhalinin sosial-iqtisadi vəziyyətinin daha etibarlı müdafiəsinə şərait yaradır. Buna görə də təsadüfi deyil ki, dövlət başçısının sosial siyasəti Azərbaycanda davamlı inkişafın və dövlət idarəçiliyinin təməlində dayanır. Bir sözlə, Prezident İlham Əliyevin son fərman və sərəncamları hər ailənin büdcəsinə böyük töhfədir və artımlar vətəndaşlarımızın sosial təminatı daha da yaxşılaşdıracaq. Həyata keçirilən tədbirlər əhalinin bütün təbəqələrini əhatə etmək baxımından da böyük əhəmiyyət daşıyır. Son illərdə bu istiqamətdə atılan mühüm addımlar sırasında sosial müavinətlərin əhəmiyyətli dərəcədə artırılmasını göstərmək olar ki, bunun da mühüm hissəsi əmək haqqı və pensiyalarla bağlıdır.

Beləliklə, son illərdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət nəticəsində vətəndaşların rifah halı əhəmiyyətli dərəcədə yaxşılaşmış, əhalinin bütün təbəqələri üçün bərabər sosial təminat sistemi müasirləşdirilmiş, insan kapitalı və sosial infrastruktur təkmilləşdirilmiş, əhalinin ən həssas qruplarının sosial müdafiəsi gücləndirilmişdir. Aparılan siyasət və atılan addımlar bütün sosial problemlərin öz həllini tapacağına və bu da öz növbəsində hər bir Azərbaycan vətəndaşının həyatında müsbət dəyişikliklərə səbəb olacağına inamı daha da artırmışdır. Bu mənada Prezident İlham Əliyevin son fərman və sərəncamları dövlət başçısının humanist və ədalətli sosial siyasətinin daha bir parlaq nümunəsi, həmçinin əhalinin güzəranının yaxşılaşdırılmasına güclü təkan verəcək addım kimi dəyərləndirilməlidir.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***